Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

F.Köçərli adına Respublika
Uşaq Kitabxanası



Musa Cəlilin anadan olmasının 110 illik yubileyi münasibəti ilə hazırlanmış metodik vəsait

# Tatar ədəbiyyatının “Musa Cəlil”i

Bakı – 2016

**Tərtibçi:** **Nərgiz Məcidova**

**Sevil Əhmədova**

**Redaktor və**
**buraxılışa məsul:** **Zahirə Dadaşova**

**Tatar ədəbiyyatının "Musa Cəlil"i: Tatar şairi Musa Cəlilin 110 illik yubileyi münasibəti ilə hazırlanmış metodiki vəsait /tərt. ed. N. Məcidova; red. və burax. məsul Z. Dadaşova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2016.- 16s.**

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2016**

## Tərtibçidən

Bu vəsait Tatar xalqının görkəmli şairi Musa Cəlilin anadan olmasının 110 illik yubileyi münasibətilə hazırlanmışdır. Anna Axmatovaya görə Musa Cəlil faşizmin zülmət qaranlıqları içində parlayan və Yulius Fuçiklə bir sırada dayanmış şairlərdən biri olmuşdur. Əsl insan kimi mərdlik nümunəsi göstərmiş Musa Cəlilin yaradıcılığı ilə yanaşı həyatı da gələcək nəsillərimizə bir örnəkdir. Musa Cəlilin yaradıcılığının təbliği bu baxımdan yeniyetmə uşaqlarda vətənpərvərlik hissinin formalaşmasında, qəhrəmanlıq hisslərinin aşılanmasında müsbət rol oynayar. Təqdim etdiyimiz bu vəsaiti uşaqların intellektual səviyyələrinin artmasında böyük rol oynayan kitabxanaçıları oxucu cəlbində müasir tədbir formalarından istifadə etməklə maarifləndirmək məqsədilə hazırlamışıq. Vəsaitdən mərkəzi kitabxanaların uşaq şöbələri və filialları, məktəb, kollec kitabxanaçıları, həmçinin uşaqların mütaliəsinə rəhbərlik edənlər istifadə edə bilərlər. Vəsait Musa Cəlilin həyat və yaradıcılığının təbliği ilə bağlı keçirilə biləcək tədbirlərdən bəhs edir.

## Həyat və yaradıcılığı haqqında

Rusiyanın Orenburq şəhərində anadan olmuş Musa Cəlil uşaqlıqdan atasını itirmiş, anasının himayəsində yaşamışdır. Keçən əsrin 20-ci illərindən bədii yaradıcılığa başlamış, şeirlərini vətən, xalq, ayrılıq mövzularında yazmışdır. 1919-cu ildə komsomol təşkilatına qoşulmuş və Rusiyada vətəndaş müharibəsinin iştirakçısı olmuşdur. 1931-ci ildə Moskva Dövlət Universitetinin ədəbiyyat fakültəsini bitirən Musa Cəlil əvvəl tatar dilində nəşr olunan bəzi uşaq jurnallarının redaktoru, sonralar isə yenə tatar dilindəki "Kommunist" qəzetinin redaktor müavini olmuşdur. Tatar gənclər təşkilatına rəhbərlik edən Musa Cəlil, İkinci dünya müharibəsi illərində sovet ordusunun tərkibində vuruşmuş, 1942-ci ildə almanlara əsir düşərək Şpandau toplama düşərgəsinə göndərilmişdir.1944-cü ilin avqustunda təşkil edilən əsirlərin kütləvi şəkildə qaçışında onları satmışlar və Musa Cəlil tutularaq 25 avqust 1944-cü ildə Berlindəki Plötzenzee həbsxanasında digər məşhur tatar yazıçısı Abdulla Alişlə birlikdə edam edilmişdir. Sovet hökuməti ona Vətən xaini damğası “vurmuş”, ailəsini isə sürgün etdirmişdir. 1949-cu ildə Musa Cəlilin belçikalı əsir yoldaşı SSRİ-nin Brüsseldəki konsulluğuna gələrək onun bir neçə şeirini, bir müddət sonra isə iki kitabını konsulluğa təqdim etmişdir. Bu kitablar tezliklə çap olunmuş, 1956-cı ildə şairə bəraət verilmiş və onun əsərlərinin çapına qoyulan qadağa birdəfəlik aradan qaldırılmışdır. Həmin il Musa Cəlilə ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı adı, 1957-ci ildə isə Lenin mükafatı verilmişdir.



Moskvada Musa Cəlilin adına küçə, Kazan şəhərində onun heykəli ucaldılmış, tatar milli dram teatrına onun adı verilmiş, adına ədəbi mükafat təsis olunmuşdur. 1954-cü ildə böyük Azərbaycan şairi Səməd Vurğun Musa Cəlilin xatirəsinə həsr olunmuş "Musa Cəlilə" şeirini yazmışdır.



**Tatar ədəbiyyatının Musa Cəlili**

Musa Cəlil on yaşından şeir yazmağa başlamışdı. Onun "Xoşbəxtlik"adlı ilk şeiri 1919-cu ildə "Ulduz" qəzetində dərc olunmuşdu. Sonralar mübariz inqilalbçılar, gizli təşkilatçılar, çar həbsxanalarının dəhşətini görmüş adamlar, cəbhələrdə vuruşmuş döyüşçülər  Musa Cəlilin 1925-ci ildə nəşr olunmuş "Biz gedirik"  ilk şeirlər kitabının əsas lirik qəhrəmanlarına çevrilmişlər. 30-cu illərdə çapdan çıxmış "Ordenli milyonlar", "Şeirlər və poemalar" kitabları Musa Cəlilin hələ müharibədən əvvəl yaradıcılığının xeyli zənginliyini nümayiş etdirirdi. "Gənc yoldaşlar" və "Oktyabr balaları" uşaq jurnallarındakı redaktorluq və jurnalistlik fəaliyyəti onun poetik inkişafında böyük rol oynamışdır. Həmin illərdə Tatarıstan Dövlət Nəşriyyatı Musa Cəlilin tərcüməsində  XII əsr gürcü şairi və dövlət xadimi Şota Rustavelinin, rus şairi, dramaturqu Samuil Marşakın, rus uşaq şair və yazıçısı Aqniya Bartonun və başqalarının kitablarını çap etmişdir. Tatar dövri mətbuatında şairin görkəmli rus şairi və dramaturqu, müasir rus ədəbi dilinin banisi Aleksandr Sergeyeviç Puşkin, rus ədəbiyyatının klassiki Nikolay Vasilyeviç Nekrasov, tanınmış ukraynalı şair Taras Şevçenko, unudulmaz  rus şairləri Vladimir Vladimiroviç  Mayakovski, Vasili İvanoviç

Lebedyev-Kumaç, fransız inqilabçısı Ejen Potyedən tərcümə etdiyi yüzlərlə şeir oxucular tərəfindən maraqla qarşılanmışdı.

***Yubiley tədbirlərinin keçirilməsi:***

Tatar şairi Musa Cəlilin yaradıcılığını uşaqlara mənimsətmək üçün məktəblərdə, uşaq müəssisələrində şairin yaradıcılığı haqqında keçirilən yubiley tədbirlərində kitab sərgilərinin təşkili daha önəmlidir.







Sərgidə Səməd Vurğunun tatar şairi haqqında dediyi sözlərdən də sitat kimi istifadə edə bilərik: “Musa Cəlil nəinki Tatar xalqı, Azərbaycan xalqı üçün də dəyərli idi.”
Musa Cəlil yaradıcılığından bəhs edən kitab sərgiləri üçün aşağıdakı başlıqlarından istifadə etmək olar: *“Tatar ədəbiyyatının Musa Cəlili”, “Tatar xalqının qəhrəman övladı”,“Mobaitdə ucalan xalqın səsi”, “Ölümdən qorxmayan şair”* və s. 1954-cü ildə Kazanda keçirilən faşizm üzərində qələbənin yubileyində Xalq şairimiz Səməd Vurğun Musa Cəlil haqqında yazdığı şeirdə belə demişdir:

Mənim şair dostum, şair qardaşım,
Vüqarın böyükdür uca dağ kimi.
Sənin hünərinlə mənim də başım,
Ucaldı göylərə bir bayraq kimi.

Neçə sərhəd aşır, el gəzir şeir

Yurd salır neçə min ürəkdə, canda.
Sənə oğlum deyir, öz balam deyir
Mənim ana yurdum Azərbaycan da

***Görkəmli şəxsiyyətlər Musa Cəlil haqqında:***

"Dünya və dünya ədəbiyyatı öz adını əbədi şöhrətləndirən və ölməz edən çox şair tanıyır, lakin adını ölməz əsərləri ilə bərabər, qəhrəmanlıq nümunəsi olan ölümü ilə də əbədiləşdirən Musa Cəlil kimi igid şairlər o qədər də çox deyil. Budur onlar: böyük Bayron, Macarıstanın şanlı xalq şairi Petefi, qəhrəman Yulius Fuçik və nəhayət, Musa Cəlil".

*Xalq şairi Səməd Vurğun*

Onun "Moabit dəftəri" Pamirin ən ucqar qışlağına qədər gedib çıxmışdır. Öz ölümü ilə qələbə qazanan adamlar ölməzdirlər!"

*Mirzo Tursunzadə.*

"Musa Cəlil mənim üçün işgəncələr və ölüm qarşısında yazıçı və vətəndaşlıq mərdliyinin bir simvolu olmuş və belə də olacaqdır. O, yalnız böyük şair deyildi, həm də böyük mənəvi gücə və mərdliyə malik olan böyük insan idi."

*Konstantin Simonov*

"Mən Musa Cəlilin şeirlərini həyəcan və narahatlıq hissi ilə tərcümə etdim. Bu gözəl insanın və istedadlı şairin şeirlərini onun faciəli taleyini xatırlamadan tərcümə etmək mümkün deyildir".

*Anna Axmatova*

"Musa Cəlil faşizmin zülmət qaranlıqları içində işıqlı bir sima kimi parladı və Yulius Fuçiklə bir sırada dayandı. Onlar əsl ziyalı və ədəbiyyatçı nümunəsi oldular. Onlar mənəvi gücün kobud fiziki güc üzərindəki təntənəsini nümayiş etdirdilər... Musa Cəlil xalqımızın hitlerizmə qarşı

qəhrəmanlıq mübarizəsi tarixində ən görkəmli bir şəxsiyyət kimi mənim hafizəmdə daim qalacaqdır.”

*Sergey Smirnov*

“Musa Cəlil! Bu iki söz poeziya və mərdlik simvoludur. Nə qədər ki, sinəmdə ürəyim döyünür, mən bu sözləri daim təkrar edəcəyəm”.

*Stepan Şipaçev*

Kitab sərgisi ilə yanaşı kitabxanalarda Musa Cəlil yaradıcılığından bəhs edən anım tədbiri də keçirilə bilər. Tədbirin keçiriləcəyi zal müharibə mövzusuna uyğun, Musa Cəlilin həyatı və kitablarından ibarət sərgi ilə qurulur. Bunun üçün sərgi təşkil edilmiş zalda aparıcılar tədbiri idarə edir. Əsərlərindən müxtəlif parçalar uşaqların ifasında dinlənilir. Ekranda tatar ədəbiyyatı haqqında, Musa Cəlilin həyatını əks etdirən, Mobaitdə keçirdiyi acılı günlərdən bəhs edən slayd nümayiş edilir.

*(Ardınca Müslüm Moqamayevin ifasında “Buxenevaldskiy nabat” klipi təqdim edilir.)*

**Foto sərgi:**



Atasız-anasız boy atdımsa da,
Ancaq üzməmişdir yetimlik məni.
Ən əziz nədirsə mənə dünyada
İtirmişəm onu:doğma Vətəni!





**I Aparıcı:** O günkü üstünü cəlladlar aldı,
Günahsız töküldü müqəddəs qanın.
Bizim dərdimizdir yarımçıq qaldı,
Sənin söz dastanın, həyat dastanın.

Əziz tədbir iştirakçıları Bu gün biz bura Tatar xalqının qəhrəman övladı Musa Cəlili yada salmaq üçün yığışmışıq. Bu il onun anadan olmasından 110 il keçir.

Alovlu vətənpərvər, azadlıq və səadət nəğməkarı olan Musa Cəlil əsl insana, vətəndaşa, söz sənət sahibinə məxsus şərəfli bir ömür yolu keçmişdir.

**II Aparıcı:** Tatar poeziyasının görkəmli nümayəndəsi Musa Cəlil türk xalqları ədəbiyyatı tarixində faşizmə qarşı yazdığı "Moabit dəftəri" şeirlər məcmuəsi ilə məşhurdur. Həbsxanada yazılmış bu şeirlərdə əsir düşmüş əsgərin vətənpərvər hissləri əks olunmuşdur. Bu kitabı dilimizə böyük şair, tərcüməçi Xəlil Rza Ulutürk tərcümə etmişdir.

Akademik Bəkir Nəbiyev X.R.Ulutürkün Musa Cəlilin "Moabit dəftəri"nin tərcüməsini tərcümə yox, həqiqi bədii möcüzə adlandırmışdır. X.R.Ulutürk Musa Cəlilin "Moabit dəftəri"nin tərcüməsi üzərində işləyərkən orijinalın digər məqamları ilə yanaşı, həm də tatar dilinin qafiyələrini Azərbaycan dilində qoruyub saxlamağa çalışmışdır. Biz bunu "Son nəğmə", "Ölüm ərəfəsində", "Sevgilimə", "Sən unudarsan", "Xədicə", "Mənim nəğmələrim", "İgidlik haqqında", "Azadlıq marşı", "Dvinaya", "Bağışla, ey Vətən", "Sayıqlamalar", "Qapı ağzında", "Timolu eşq", "Birə", "Tabut", "Ana bayramı" şeirlərinin tərcüməsində yaxşı görürük.

Gəlin, bu şeirlərə oxucularımızın ifasında qulaq asaq:

**Oxucu**: Bir gün mən nə gördüm bizim binada:
Qapı ağzındaca günorta çağı,
Bir uşaq nə qədər dartınırsa da,
Zəngin düyməsinə çatmır barmağı,
-Nə olmuş ay bala? -

Yanaşdım ona –
Yardım eyləyimmi, basımmı zəngi?
Söylə, neçə dəfə?
Dedi:-Beş dəfə!
Pənbə yanaqları yandı pul təki,
Basdım, zəng beş dəfə dil açdı: zınq,zınq...
Uşaq: haydı, əmi!-dedi-gəl qaçaq.
İndi ev yiyəsi bayıra çıxsa,
Bizim başımıza oyun açacaq!

**I aparıcı**: Musa Cəlilə görə ölüm fikri səni məşğul edən zaman düşünürsən ki, ölümdən sonra da bir həyat var... Ölümdən sonrakı əsl həyat xalqın şüurunda, hafizəsində yaşamaqdan ibarətdir. Əgər mən sağlığımda faydalı bir iş görmüşəmsə, deməli, öləndən sonra da yaşamağa haqq qazanmışam. Əgər bu haqqı qazanmışamsa, nə üçün ölümdən qorxum? Həyatın əsl mənası budur: elə yaşa ki, öləndən sonra da yaşa... Ölümdən qorxmamaq o demək deyildir ki, yaşamaq istəmirik və ölmək – qalmaq bizim üçün birdir. Qətiyyən belə deyil! Biz həyatı çox sevirik, yaşamaq istəyirik və buna görə də ölümə nifrət edirik. Lakin ölmək mütləq lazımsa Vətən yolundakı bu şərəfli ölüm 30-40 il, yəni qocalanadək dinc əməklə yaşamağa bərabərsə, “Mən nə üçün həyatdan köçdüm?” deyə qorxuya düşmək lazım deyil”.

**II Aparıcı:** Bu sözlər Musa Cəlilin “Biz həyatı sevirik” adlı gündəliyindəki 12 yanvar, 1942-ci il tarixli qeydlərindən götürülmüşdür. Xalqın dinc həyatını tərənnüm edən, insanların əməyə, zəhmətə, xalq və Vətən yolunda mübarizəyə misilsiz qəhrəmanlıq nümunələri göstərməyə, bir-birini sevməyə, bir-birinə hörmət etməyə çağıran nəğmələr yaratmaq arzusu ilə yaşayan şairin yaradıcılıq üfüqləri də olduqca geniş idi. Təkcə Tatarıstanda deyil, Vətənindən kənarda belə baş verən hər bir mühüm hadisə, yaranan yenilik Musa Cəlilin ilhamına qanad verirdi. Az

müddət ərzində onlarca şeirlə yanaşı, onun ilhamla yazdığı “Poçtalyon”, Direktor və günəş” kimi irihəcmli poemaları da oxucularını sevindirdi. Musa Cəlil “Altınçeç” (“Qızıl saçlı”) adlı tatar milli operasıını yaratdı. Onun ardınca “Eldar” poema - librettosu tatar mədəniyyətinə şəfəq saçdı.

**I Aparıcı:** Bəzi şairlər özlərinin böyük yaradıcılığı, gözəl və böyük poeziyası ilə əsrlərin sınağından çıxmış, öz adlarını əbədiləşdirmişlər. Yalnız böyük poeziyası ilə deyil, həm də özünün şəxsi qəhrəmanlığı ilə, tarixin amansız qara qüvvələrinə qarşı döyüşdə özünün ölümsüz ölümü ilə adını əbədiləşdirmək onların çox cüzi bir qisminə nəsib olmuşdur. Böyük ingilis şairi Bayron, məşhur macar şairi Petöfi, çex şairi Fuçik və bizim əziz tatar şairimiz Musa Cəlil belələrindən olmuşdur!

**II Aparıcı:** Səməd Vurğunun ömrünü, taleyini, bütün varlığını azadlıq və qələbə uğrunda fəda etmiş Musa Cəlil haqqında dediyi bu sözlər həqiqətə çevrildi. Özü də böyük həqiqətə. B.Zernikin “Kötük üstə mahnı”, qazax şairi və xalq yazıçısı Cuban Muldaqaliyevin “Mahnı ölmür”, kalmık şairi David Kuqultinovun “Ürəyin gözü ilə”, Tatarıstanın xalq şairi və dramaturqu İldar Yuzeyevin “Axırıncı sınaq”, rus şairi, publisisti, rəssamı və memarı Andrey Voznesenskinin “Ustad”, tatar dramaturqu, ictimai və əməkdar incəsənət xadimi Riza İşmuratovun “Əbədi mahnı”, Azərbaycanın xalq şairi Bəxtiyar Vahabzadənin “Uçun, nəğmələrim!”, digər dost və qardaş yurdların söz-sənət ustadlarının əsərləri Musa Cəlili bir daha dünyaya tanıdıb, bütün tərəqqipərvər, sülhsevər bəşəriyyətin sevimlisinə çevirib. Görkəmli fransız yazıçısı Lui Araqon, alman alimi L.Nebensal, italyan yazıçısı Ciovanni Cermanetto, rus şairləri Stepan Şipaçyov, Konstantin Simonov, Mixail Lukonin, qardaş xalqların şair və yazıçılarından qazax Muxtar Auezov, qırğız Aalı Tokambayev, başqırd Mustay Kərim, çuvaş Yakov Uxeşay

və başqaları Musa Cəlilin qəhrəmanlıqla dolu həyatından və yaradıcılığından həmişə məhəbbət və ehtiramla söz açmışlar.
Tatar xalqının mədəni həyatının elə bir sahəsi yox idi ki, orada Musa Cəlilin fəaliyyəti olmasın. Tatar poeziyasının, ədəbiyyatşünaslığının inkişafına təkan verən poetik əsərlər, maraqlı uşaq pyeslərinin yaradılması, opera teatrının tərəqqisi sahəsində böyük yaradıcılıq işləri məhz onun adı ilə bağlıdır.
**I Aparıcı:** İllər ötəcək, nəsillər keçəcək, ancaq Musa Cəlilin parlaq siması əfsanəvi bir obraz kimi gələcək nəsillərə yadigar qalacaqdır. Musa Cəlil haqqında simfoniyalar bəstələnəcək, dram əsərləri yaranacaqdır. Onun şərəfinə gözəl mahnılar qoşulacaq, yüzlərlə təravətli şeirlər yazılacaqdır.
Musa Cəlilin adı gələndə, yada böyük rus yazıçısı Maksim Qorkinin "İzergil qarı" əsərindəki əfsanəvi qəhrəman Danko obrazı yada düşür. Danko ürəyini çıxarıb məşəl edərək, qaranlıqda zülmə və ölümə məhkum olan insanların yolunu işıqlandırır. Onları azadlığa çıxarır, özünə isə bu azadlıq nəsib olmur. Böyük tatar şairinin mənalı və şərəfli həyatı da bizə Dankonun taleyini xatırladır...Özü cismən olmasa da, onun əsirlikdə yazdığı nəğmələri Vətənə mənən zəfərlə, özü də böyük zəfərlə qayıtdı. Şairin şeirləri əllərdən-əllərə keçdi, dillərdən-dillərə düşdü. Ölməz nəğmələrin müəllifi öləndən sonra yaşamaq haqqı qazandı, elə özünün dediyi kimi:

Mən ölməyəcəyəm, yox, nəğmələrim
Bu dünya durduqca məşəl tək yanar.
Zəfərlərlə ölən bir qəhrəmana
Öldü söyləməyə kimin haqqı var?!

**Aparıcı:** Qorxu deyilən hiss şair-qəhrəmanın ruhuna tamamilə yad idi. Musa Cəlil heç vaxt, heç bir yerdə ölümdən qorxmamışdı. Əgər belə olmasaydı, üzünə ölüm

hökmü oxunandan sonra “Azadlıq”, “Nəğmə”, “Meşə”, “Quşcuğaz”, “Qılınc”, “Pul”, “Məhkum”, “Döyüşdən sonra”, “Yaza köməyimiz”, “Ölümə”, “Vəhşilik”, “Alman ölkəsində”, “Dostuma”, “Cəllada”, “İnanma” və s. insan qanına susamış faşist cəlladlarını nifrətlə, azadlıq carçılarına məhəbbətlə, gələcəyə böyük inamla dolu şeirlərini yaza bilməzdi. Ana itkisinin acısını bir an unuda bilməyən şair, hələ 1938-ci ildə ”Ana” adlı şeir-andında bütün mərhum anaların övladı kimi səsini ucaltmışdı.

Son

Bu tədbirin ssenarisi əsasında şair haqqında Tatarıstan kitabxanaları ilə telekorpu təşkil edə bilərik. Telekörpü skayp vasitəsilə həyata keçirilə bilər. Azərbaycan kitabxanaları Musa Cəlillə bağlı keçirilən tədbirin, təşkil olunan foto stendlərin və kitab sərgilərinin video görüntüsünü Tatarıstan kitabxanalarına göndərməklə iki xalq arasında körpü salmaq olar. Belə bağlantılar Azərbaycanda da şairin necə qiymətləndirildiyini göstərər.

## *ƏDƏBİYYAT SİYAHISI*

### ***Əsərləri:***

Ayrılıq // Türk xalqları ədəbiyyatı. Ən yeni dövr.–B.: Çaşıoğlu, 2007. - S.143.
Azadlıq // Türk xalqları ədəbiyyatı. Ən yeni dövr.–B.: Çaşıoğlu, 2007. - S.134.
Bağışla, ey Vətən! // Türk xalqları ədəbiyyatı. Ən yeni dövr. – B.: Çaşıoğlu, 2007. - S.132-133.
Dərman // Türk xalqları ədəbiyyatı. Ən yeni dövr.–B.: Çaşıoğlu, 2007. - S.146.
Kölə // Türk xalqları ədəbiyyatı. Ən yeni dövr.–B.: Çaşıoğlu, 2007. - S. 148. ;
Qapı ağzında // Türk xalqları ədəbiyyatı. Ən yeni dövr.–B.: Çaşıoğlu, 2007. - S.144.;
Qırmızı çobanyastığı // Türk xalqları ədəbiyyatı. Ən yeni dövr.–B.: Çaşıoğlu, 2007. - S.135.;
Qız nəğməsi // Türk xalqları ədəbiyyatı. Ən yeni dövr.–B.: Çaşıoğlu, 2007. - S.130.
Quşcuğaz // Türk xalqları ədəbiyyatı. Ən yeni dövr.–B.: Çaşıoğlu, 2007. - S.136-137.
Məktub // Türk xalqları ədəbiyyatı. Ən yeni dövr.–B.: Çaşıoğlu, 2007. - S.142.
Sayıqlamalar // Türk xalqları ədəbiyyatı. Ən yeni dövr.–B.: Çaşıoğlu, 2007. - S.145.
Son nəğmə // Türk xalqları ədəbiyyatı. Ən yeni dövr.–B.: Çaşıoğlu, 2007. - S. 149.
Şair // Türk xalqları ədəbiyyatı. Ən yeni dövr.–B.: Çaşıoğlu, 2007. - S.138.
Yaylıq // Türk xalqları ədəbiyyatı. Ən yeni dövr.–B.: Çaşıoğlu, 2007. - S.131. Pivəxanada // Türk xalqları ədəbiyyatı. Ən yeni dövr. – B.: Çaşıoğlu, 2007. - S.139-141.
Yalnız, yalnız azadlıq! // Türk xalqları ədəbiyyatı. Ən yeni dövr. – B.: Çaşıoğlu, 2007. - S.147.

Zindan gözətçisi // Türk xalqları ədəbiyyatı. Ən yeni dövr.– B.: Çaşıoğlu, 2007. - S.150.
***HAQQINDA***
Heyət C. Türk dilləri və ləhcələrinin tarixi. II kitab.–B.: Təhsil, 2011. – S.112-113.
Mustafin R. Qəhrəman şairin izi ilə.-Bakı.: Gənclik, 1988. - 196, 5 s.
Ulutürk X. (Rza). Musa Cəlil qəhrəmanlığı (1906-1944) // Dünyanın ədəbi xəritəsi. – B.: Çinar-Çap, 2008. – S. 52-58.
Ulutürk X. (Rza). Şair qəhrəmanlığı:Musa Cəlil // Dünyanın ədəbi xəritəsi. – B. : Çinar-Çap, 2008.- S.59-61.
Ulutürk X. (Rza). "Moabit dəftəri"nin tərcüməsinə dair // Dünyanın ədəbi xəritəsi. – B.: Çinar-Çap, 2008. – S. 62-72.
***DÖVRİ MƏTBUATDA***
Abbasli T. Ədib. Əsgər. Əsir. Edam. Təqib. Təltif : yaradıcılıqda da, həyatda da hadisə // Mədəniyyət. – 2011. – 16 fevral. – S.12.
Kişi şair : Musa Cəlil - 100 // Ədəbiyyat qəzeti. - 2006. - 24 fevral. - S.4.
Mirzəzadə R. Moabitdə - faşist zindanında ucalan HAQQın səsi : Tatar xalqının qəhrəman övladı Musa Cəlilin anadan olmasının 110 illiyi münasibətilə // Həftə içi. – 2016. – 10 fevral. – S. 4- 5.
Ədəbiyyat siyahısı F Köçərli adına Respublikan uşaq kitabxanasının fondu əsasında hazırlanmışdır.

**Tatar şairi Musa Cəlilin 110 illik yubileyi münasibəti ilə respublika uşaq kitabxanaları üçün hazırlanmış metodik vəsait**

**Kompyuter yığımı**
**və dizayn: Nərgiz Məcidova**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail: childlibbaku@yahoo.com**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş:
Çapa imzalanmışdır:15.03.2016
Tirajı:100
Pulsuz